8 may / 2021 Ədəbiyyat QƏZETİ

# Esmira NƏZƏRLİ - 70



Hörmətli Esmira xanım!

Sizi - istedadlı yazıçı-publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1976-cı ildə ADU-nun jurnalistika fakültəsini bitirmisiniz. Tələbəykən 1972-ci ildə "Qobustan" toplusunda əmək fəaliyyətinə başlamısınız. Hazırda həmin topluda şöbə redaktoru vəzifəsində çalışırsınız. Bu müddət ərzində "Qobustan" jurnalının demək olar ki, hər nömrəsində mədəniyyət və incəsənətimizin müxtəlif sahələrinə dair bir-birindən maraqlı yazılarla çıxış etmisiniz. Müxtəlif illərdə yazdığınız oçerk və məqalələrdən ibarət "İncəsənət inciləri" adlı dəyərli kitabınız işıq üzü görüb. Bir sənət bilicisi kimi mədəniyyət xadimlərinə diqqət və qayğınızın həmin kitabda bir daha şahidi olduq.

Yaradıcılığınız Həsən bəy Zərdabi adına mükafatla dəyərləndirilib.

Hörmətli Esmira xanım!

Bir daha sizi yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**